Ədəbiyyat QƏZETİ

# Mir Cəlal Paşayevin "Gülbəsləyən qız" hekayəsinin hekayəti



Mahirə QULİYEVA

İyul ayının ortaları idi. Heç düşünmədiyim, nəzərdə tutmadığım halda keçirdiyim maşın qəzası ucundan müalicə üçün Naftalanın "Çinar" adlı otelinə yerləşdim. Deyilənə görə, biz bu il son 100 ilin ən isti yayını yaşamışıq. Binanın dördüncü mərtəbəsində oturub çinar ağaclarını və həyətin ortasında yerləşən fəvvarə meydanının yuyulmasını izləyirdim. Bir tərəfdən yenicə tökülməyə başlayan yarpaqların xışıltısı, göz oxşayan yaşıllıq, meşəlik, başını ağ duman örtmüş dağlar, ara-sıra insanda yaşamaq həvəsini artıran quşların səsi, digər tərəfdən isə yuyulmaqda olan fəvvarə hovuzuna axan suyun şırıltısı... Hər bir səs öz ahəngi ilə könüllərə sevinc bəxş edirdi. Düşünürəm ki, yarım saat bu səsləri dinləyən bəstəkar Şopenin, Üzeyir Hacıbəyovun, Qara Qarayevin əsərlərindən heç də geri qalmayan bir musiqi bəstələyə bilərdi.

Beş ildən artıq idi ki, dincəlmirdim. İllərin çiynimə yüklədiyi ağır yük sayəsində tamamilə hövsələdən çıxmağıma baxmayaraq, təbiətin qucağında sakitliyimi tapmaq arzusunda idim. Onu da qeyd edim ki, daima görəcəyim işlər haqqında düşündüyüm üçün üzləşdiyim haqsızlıqlardan gərginləşmiş əsəblərimin tam şəkildə sakitləşəcəyinə də inamım yox idi. Amma yenə də təbiət özünəməxsus gözəllik, özünəməxsus ətri ilə seçilən ən gözəl guşə, ən gözəl rahatlıq məkanıdır və mənim də bu ab-havaya ehtiyacım var idi.

Bir anlıq oturduğum bu eyvan və seyr etdiyim mənzərə mənə bir hekayəni xatırlatdı, istirahətə gəlməmişdən oxuduğum bir hekayəni... Hekayə haqqında düşündüklərimi hələ may ayında yazmağa qərarlı idim. Lakin həyatın öz axarı, gözlənilməyən hadisələri var ki, bundan nə qədər çalışsan belə, yan keçə bilməzsən. Görünür, hər işi görməyin belə öz saatı, öz məqamı var. Düşündüm ki, məqam elə bu məqamdır, çünki hekayənin özü də istirahət evində yazılmışdır. Fikrimi Mir Cəlal Paşayevin öz sözləri ilə desəm, daha anlaşıqlı olar: "Bağ-bağat içində, güllük əhatəsində tikilmiş ağ daş binanın ikinci mərtəbəsində geniş bir eyvanda istirahətdə idim. Həkimlər əsəb sakitliyim üçün buranı münasib bilib mənə məsləhət görmüşdülər. Suyun şırıltısı, ağac yarpağının xışıltısı, həqiqətən, təbiətin bu özəllikləri insanı sakitliyə dəvət edir".

Suyun şırıltısını munis musiqiyə, gah leysana, gah da seyrəlməkdə olan xışıltıya bənzədən yazıçı ona yaradıcılıq ilhamı bəxş edən, ruhunu oxşayan, əsəblərini sakitləşdirən təbiət hadisələrini təsvir etməklə gözəl bir mənzərə, təbiətin ecazkar vəsfini yaradır. Mən elə zənn edirəm ki, təbiətin bu vəsfi nəinki onun müəllifini - tablonun canlı şahidini, hətta onun oxucusunu belə gərginlikdən xilas edə bilər. Sözsüz ki, söylədiyimiz fikir təbiəti sevən, onunla danışan duyğusal insana şamil edilərkən reallaşar. Yazıçının öz cümlələri daha aydın şəkildə bu vəsfi və ona olan müsbət təsiri ortaya qoyur: "Təbiətin sədasını eşitmək, suyun, küləyin, yağışın səsini dinləmək nədənsə mənə həmişə xoş idi. Çünki bu səslər məni boğulub təngə gəldiyim düşüncələrdən, intizar və çətinliklərdən xilas edir, anamız təbiətin qoynuna çıxarır".

Yazıçının bu duyğuları hamımıza yaxın və doğmadır.

Ünsiyyət, sözün geniş mənasında gözəldir. Lakin insanın bəzən zahirən lal görükən, bəzən də coşub-daşan, hər halı ilə danışan təbiətlə ünsiyyətinin misli-bərabəri yoxdur. İnsanla müqayisədə lal görükən təbiət ilin hər fəslinə uyğun tərzdə danışır, özü də ecazkar şəkildə... Təbiətin qucağında olarkən bu gözəllik insana təmkinlik gətirir, onu öz söhbəti ilə sakitləşdirir. Bəlkə təbiətin bu halını danışmaq deyil, nəğmə oxumaq kimi dəyərləndirsək, daha düzgün olar.

Ani olaraq, əziz oxucularımız, isti yay günlərində çoxdan intizarında olduğumuz yağışın yağmasını, leysanın şırıltısını, göyün gurultusunu, göy qurşağının əlvan çalarlara boyanmasını, bəzən göy üzünün qara buludlarla örtülməsini, ahəstə-ahəstə buludların seyrini, ara-sıra qara buludları üstələyən günəş şüalarını, ümumiyyətlə, təbiətin sakit bir guşəsini və bu sakitliyin özündə olan sakitsizliyi, təbiət və quşların vəhdətindən yaranmış olan həzin nəğməni göz önünə gətirməklə özümüzü günün yorğunluq və məşəqqətlərindən qurtara bilərik. Təbiətin gözəlliklərinə aludə olaraq məqsəddən uzaqlaşdıqmı?! Əsla yox!.. Bizim bir an təbiətlə üzləşməmizin əsas səbəbi Mir Cəlal müəllimin "Gülbəsləyən qız" hekayəsinin əsas süjet xətti oldu.

Hər bir oxucuda belə bir sual yarana bilər: "Nədən məhz bu hekayəni hekayət etmək istəyi yarandı?!.." Çünki bu hekayə təbiətin ən gözəl ünsürü olan gülə, Xaliqin ən gözəl biçimdə yaratmış olduğu gözəl qıza, xilqətə həsr edilib. Ən başlıca səbəb isə, mən belə düşünürəm ki, yazarın hekayəni ömür-gün yoldaşı, həyatının enişli-yoxuşlu, ağrılı-acılı, sevincli-kədərli günlərinə dəstək olan sirdaşına, övladlarının anasına həsr etməsidir. Bu hekayə, yaşanılan uzun həyat yolunda bir ailə başçısının ömür-gün yoldaşına bəxş etdiyi ən qiymətli, əvəzsiz, əbədi qalan bir hədiyyəsidir.

Cəmiyyətin izzət-hörmət sevgisi öz kökünü onu təşkil edən ailələrdən əxz edir. Mir Cəlal müəllimin hekayəsindəki bir məqam da ehtiva etdiyi mənasının çoxyönlülüyü baxımından nəzər-diqqətimi cəlb etdi: "- Ay təbiətin gözəl məxluqu, niyə səmaya baxırsınız?! Sizə su və həyat verən göydə deyil, yerdə, yanınızdadır. Yanınızdakı gözəl qıza baxın. Səf-səf düzülün, budaqlarınızı onun qarşısında hörmətlə əyin, ətrinizi onun gənc və sağlam vücuduna səxavətlə səpin. Onun kimi sizin yolunuzda zəhmət çəkən, şirin səhər yuxusuna haram qatan, ana kimi hər gün sizi yemləyən, qayğınıza qalan kimdir, kim ola bilər?"

Müəllif gülə xitab edərək, onu şükranlığa dəvət edir. Ona qulluq edən qadına şükranlığa... Yazıçının bu fikrində nankorluqdan uzaq durmaq, şükür, təşəkkür, vəfa anlayışlarına sıxı bağlı olmağa bir çağırış var. Əslində, yaxşılıq edənlər qarşılıq gözləməzlər. Ancaq yaxşılıq edənlər, mötəbər mənbələrdə qeyd edildiyi kimi, təşəkkürü həkk edər. Bu təşəkkür, həm edilən yaxşılığın dərəcəsini artırar, həm nemətin davamını təmin edər, həm də yaxşılıq edən ilə edilən arasında sevgi bağı qurar... Gülə xitabən yazılmış bu cümlənin məğzi nəsihət və ibrətdir.

Yazıçı hər bir insanı, ümumən, canlı varlığı ona xidmət edənlərə, hekayədə isə öz işini sevərəkdən yerinə yetirən incə, zərif və cavan bir qıza baş əyməyə çağırır.

Şükranlıq və ona zidd mənada işlənən nankorluq məsələsi "Qurani-Kərim"in əsas mövzularındandır. "Quran"ın bir çox ayələrində əks olunmuş bu məsələ "İbrahim" surəsinin 7-ci ayəsində "Əgər (Mənə şükür etsəniz, sizə (olan nemətimi) artıracağam. Yox, əgər nankorluq etsəniz (unutmayın ki,) Mənim əzabım həqiqətən şiddətlidir". Bu anlamda Oskar Vildenin söylədiyi fikir də maraqlıdır: "Nankor insan hər şeyin qiymətini bilən, lakin heç bir şeyin dəyərini bilməyən kimsədir".



Söhbət qadından gedirsə, önəmli yer bu baxımdan anaya ayrılmalıdır. Mən isə analar haqqında danışmağa cürət etmirəm, çünki mötəbər qaynaqlar "cənnət anaların ayağı altındadır", - ifadəsi ilə onların layiqli dəyərini vermişdir. Bundan ali dəyər ola bilməz!...

Bir daha qeyd etmək istərdim ki, müəllifin xitab üstündə yazdığı bu cümlə özünün zahiri və batini mənası ilə insan ruhunun sağlam şəkildə tərbiyəsinə, onda gözəl əxlaqı aşılamağa və bəzən də mövcud əxlaqı tamamlamağa xidmət edən bir nəsihətdir.

Bu cümlədə, eyni zamanda hər bir kişinin, ərənlərin öz qadınına zamanında qiymət verməsinə də işarə vardır. Elə bu baxımdan da deyirəm, özü də hayqırtı ilə deyirəm: "...Tutun, necə ki, zamanında tutmusunuz, ilk dəfə incə əlini sizə uzadan qadınınızın əlini... Zamanın sınağından ləyaqət və sədaqətlə çıxan qadının əlini buraxmayın... İllər keçdikcə payız saraltısını üstünə çəkmiş, bununla da heç nurunu itirməmiş, bir xəzri küləyinə bənd olan, küləklərin sınaqlarına məruz qalan, ara-sıra ağacından qopmaq ehtimalı olan yarpağa bənzər o titrək əli buraxmayın!"

Mən, məkrliyi ilə bir imperiyanı (yəni ailəni) dağıtmağa çalışan qadınları demirəm... Allah qorusun!.. İlk dəfə sevdiyiniz və ömrü boyu sizə sadiq qalan ömür-gün yoldaşınızı deyirəm... O qadını deyirəm ki, həyatda nail olduğunuz hər şeyin təməlində o durur. O qadını deyirəm ki, sizin nailiyyətləriniz naminə gecəni gündüzə qatır, yuxusuz gecələrinizə şərik olur, ardı-arası kəsilməyən pürrəngi çayı yavaşcadan stolun bir küncünə qoymaqla təskinliyini tapır. Sizi ürək yangısı və sevgi dolu gözlərilə sakitcə və gizlicə izləyərək dəstək olmağa çalışan qadını deyirəm.

Hekayənin başqa məqamına nəzər salaq. Sabahı günü suyun səsini eyvandan yox, həyətdə, lap yaxından eşidən Mir Cəlal müəllim gülbəsləyən qız üçün öz əlləri ilə gül toplamağa başlayır: "Dərdiyim güllərdən səliqə ilə, yaraşıqlı bir dəstə də bağlayır, qıyax yarpağı ilə sarımağa çalışırdım. Düzəltdiyim iki dəstədə məxməri gül, nərgiz, mixəkgülü, dağçiçəyi, xətmi, söyüd çiçəyi, nargülü, qızılgüldən tutmuş süsən, zanbağa, nilufərə, Çin gülünə qədər hamısından var idi. Özü də çalışırdım bu güllərin rəngi xalçada vurulan dairəvi naxışlara oxşasın, hər halda qarmaqarışıq yox, yaraşıqlı olsun..."

Gözəllik vurğunu olan yazar xalçanın milli ornamentini dəstə bağladığı gülə də gətirərək millilik harmoniyası yaratmış, milli mənsubiyyətinə bağlı olduğunu önə çəkmişdir.

Yazıçının gül dəstəsi ilə bağlı hekayəsindən gətirdiyimiz nümunə bir növ Masinonun ümummüsəlman təfəkkürü, düşüncə tərzi və ədəbiyyatda onun inikası məsələsi ilə səsləşir. Xüsusilə bir səciyyəvi məqamı qeyd edən Masinon Qərbdən fərqli olaraq Şərqdə Allahın yaratmış olduğu hər şeyin ədəbiyyatda ümumi, ötəri şəkildə deyil, məhz Onun qüdrətini göstərəcək dərəcədə müfəssəl və təfsilatlı şəkildə, yaradılmışların hər birinin yeri göstərilməklə əks etdirildiyini qeyd edir. Mövcud güllərin adlarının çəkilməsi, onların müxtəlif yarpaqlarla bükülməsi, bütün bunlar Allahın qüdrətinin nəticəsidir.

Ədəbiyyatın əsasını insan konsepsiyası təşkil edir. Yazıçının dövründə isə zəhmətkeş insana verilən dəyər əsərlərin ana xəttini təşkil edirdi, desək yanılmarıq.

"Gül bəsləyən qız" hekayəsinin əsasında zəhmətkeş insan və ona verilən dəyər durur. Mir Cəlal müəllimin hekayəsində onun insan sərrafı olması özünü bariz şəkildə göstərir: "...Qız ləklərdən gül dərdiyimi, dəstə bağladığımı da görürdü. Güman edirdi ki, mən də hər gün buradan səbət-səbət gül dərib təntənə yerlərinə aparanlardan biriyəm. Yəqin ki, bu düzəltdiyim dəstəni xarici qonaqlara, ...ya da gözəl xanımların hansına isə təqdim etməyə hazırlaşaram..."

Qızın gözlərində arifanə şəkildə bu fikirləri oxuyan yazıçı elə eyni sakitliklə üreyində: "...yanılırsan qızım, tamam yanılırsan. Mən sən deyənlərdən deyiləm" - cümləsini təkrar etməklə öz işini davam etdirirdi.

Gözəl gül dəstəsini qıza təqdim edən müəllif onun ürkək bir ceyran kimi çaşdığı qədər böyük sevincinin də şahidi olur.

Gül bəsləyən qızın "Mən buna layiq deyiləm" cümləsinə, Mir Cəlal müəllim əsl yazar, pedaqoq kimi "Qızım, bu güllərin əsl sizə, sizin də bu güllərə ləyaqətiniz var" - kimi cavab verməsi bir daha onun böyüklüyündən irəli gəlir. Gül dəstəsi əsl sahibinə çatdığı kimi, bütövlükdə hekayə isə müəllifin ömür-gün yoldaşına hədiyyə olaraq ədəbiyyat tariximizin səhifələrinə daxil oldu.

Hekayənin hekayətindən yazıçı, pedaqoq, tanınmış alimin ruhu şad oldusa, onun qadına, daha doğrusu, ömür-gün yoldaşına verdiyi dəyər isə xanımının ruhunu sevindirdi. Bizə isə hər iki ruhun sevinc məqamını yaşamaq qalır.